# AZƏRBAYCANDA ƏTRAF MÜHİT PROBLEMLƏRİ, BİOLOJİ MÜXTƏLİFLİYİN QORUNMASI VƏ EKOLOJİ MONİTORİNQİ

**Cəmalə Nəbiyeva*, Səməd Rzazadə, Vəsilə Nəsibova**

*Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu, Bakı*
*nabiyevajamala@gmail.com

Ətraf mühit insanı və digər canlı orqanizmləri əhatə edən, onun mövcudluğunun forma və xarakterini müəyyən edən fiziki, coğrafi, bioloji, sosial, mədəni, siyasi şərait məcmusudur.

Ətraf mühit insanların həyatına, bütovlükdə cəmiyyətin inkişafına təsir göstərir.

Ətraf mühitlə insanlar arasında ikitərəfli münasibət vardır: insan istənilən fəaliyyəti ilə ətraf mühitə, ətraf mühit isə insanın həyatına təsir göstərir. Buna misal olaraq, "İstixana effekti"ni göstərmək olar. 300 illik neft, kömür və qazın bütün dünyada sənayenin inkişafı üçün istifadə edilməsi qlobal istiləşməyə əhəmiyyətli dərəcədə təsir edir. Son illərdə şahidi olduğumuz iqlim dəyişiklikləri Yer kürəsinin bütün sakinlərinə təsir göstərir.

Təbiət müəyyən dərəcədə regenerativdir, lakin bu proseslərin ciddi pozulması, məsələn, çirklənmə, zərərli kənd təsərrüfatı məsulları, nəzarətsiz balıq ovu təbii tarazlığın pozulmasına gətirib çıxarır.

Azərbaycanın təbiətini Xəzər dənizinin suları, Qafqaz dağlarının zirvələri, onların arasında yerləşən zəngin dərələr və meşələr əhatə edir. Xəzər dənizi dünyanın ən böyük gölüdür, çoxsaylı bitki və heyvan növlərinin məskənidir. Qafqaz dağları ecazkar profili və möhtəşəm mənzərələri ilə tanınır. Aşağı yamaclarda qalın meşələr, lakin yüksək hündürlüklərdə landşaftı seyrək düzənliklər və qayalı zirvələr üstünlük təşkil edir. Lakin buna baxmayaraq, Azərbaycanda ekoloji problemlərin mövcudluğu və onların əsasən keçmişdən miras qaldığı hamıya məlumdur. Bu problemləri qısaca olaraq göstərmək olar:

1. İqlim dəyişikliyi

Qlobal istiləşmə iqlim dəyişikliklərinin ən nəzərə çarpan ünsürüdür və yaxın 100 il ərzində artacağı qaçınılmazdır. İqlim dəyişikliyi üzrə Azərbaycan son illərdəki fəaliyyətinə görə 1-ci, mövcud vəziyyətə görə isə 67-ci yerdədir. Məlumdur ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının istilik effekti yaradan qazların tullantılarının azaldılması istiqamətində kəmiyyət öhdəliyi götürməyən tərəf olsa da, tullantıların azaldılması üçün konkret tədbirlər həyata keçirir.

2. Enerji

Enerji istehsalı, ilk növbədə, qalıq yanacaqların yanması səbəbindən ətraf mühitə ciddi ziyan vurur. Təbii ki, günəş, külək və su elektrik stansiyaları kimi alternativ enerji mənbələri var, lakin onlar ölkənin ümumi enerji tələbatının yalnız kiçik bir hissəsini ödəyə bilər. Bərpa olunan mənbələrdən istehsal olunan enerjinin miqdarının artırılması elektrik enerjisi istehsalı sahəsində ətraf mühitin deqradasiyasının azaldılmasında ən mühim addımdır.

3. Su

Bütün həyati proseslərdə suyun rolu hamılıqla qəbul edilmişdir. İnsan susuz 8 gündən çox yaşaya bilməz, il ərzində isə 0,1 ton su istifadə edir. Bitkilərin 90%-i sudan ibarətdir. Kənd təsərrüfatı suyun əsas istehlakçısıdır. Son illər ölkədə mərkəzləşmiş kanalizasiya sistemlərinin yenidən qurulması, mövcud tullantı sutəmizləyici qurğuların modernləşdirilməsi və yenilərinin inşası üzrə böyük layihələr icra olunur, həmçinin su hövzələrinin hətta kiçik lokal mənbələrdən çirklənməsinin qarşısını almaq üçün modul tipli təmizləyici qurğular hazırlanır.

4. Biomüxtəliflik və torpaqdan istifadə

Torpaqdan qeyri-sabit istifadə qiymətli ekosistemlərin deqradasiyasına və biomüxtəlifliyin itirilməsinə səbəb olmuşdur.

Ölkə ərazisində torpaqların fon tərkibinin, neft məhsulları, pestisidlər və ağır metallarla çirklənməsinin öyrənilməsi məqsədilə mütəmadi monitorinqlər aparılır.

5. Kimyəvi maddələr

Zəhərli kimyəvi maddələrlə çirklənmiş ekosistemi təmizləmək çox çətindir və praktikada bu nadir hallarda sistemli şəkildə aparılır. Eyni zamanda, zərərli birləşmələrin istehsalını azaltmaq və onların emissiyalarını minimuma endirmək ətraf mühitin qorunmasının vacib hissəsidir.

6. Atmosfer çirklənməsi

Atmosferə mənfi təsir edən bir çox faktorlar mövcuddur. Qalıq yanacaqlar, xüsusilə kömür yandırıldıqda karbon qazından (karbon-dioksid) əlavə, bir sıra başqa birləşmələr əmələ gəlir. Kükürd və azot da kömür yanmasının əlavə məhsullarıdır və əhəmiyyətli dərəcədə ekoloji problemlər yarada bilir. Havanın çirklənməsi həmçinin heyvan və insan sağlamlığına təsir edən toz və ya digər maddələrin atmosferə atılması ilə baş verə bilər.

Atmosfer havasının ekosistemə təsiri ($CO_2$-nin adambaşına düşən və ÜDM-ə nisbətən miqdarı) üzrə Azərbaycana 94-cü, bu sahədəki son 10 ildə inkişaf göstəricilərinə görə isə 24-cü yer verilmişdir.

7. Tullantıların idarə edilməsi

Tullantıların səmərəsiz idarə olunması bütün planetdə bir sıra ekoloji problemlərə səbəb olub. Tullantıların miqdarını azaltmaq üçün bir sıra dövlətlər, müəssisələr onları təkrar emal etməyə təşəbbüs göstərirlər.

8. Ozon qatının deşilməsi

Ozon təbəqəsi çox vacibdir, çünki o, canlı orqanizmlərin toxumalarının ciddi zədələnməsinə və xərçəngə səbəb ola bilən ultrabənövşəyi günəş şüalarının Yer səthinə birbaşa düşməsinin qarşısını alır.

9. Balıqçılıq

Dünya sularında qiymətli balıq növlərinin populyasiyası fəlakətli şəkildə azalır. Balıqçılığa dair göstərici üzrə Azərbaycan hələ də qiymətləndirilməmişdir. Belə ki, bu sahə üzrə qiymətləndirmə 200 millik iqtisadi zona konseptinə əsasən aparılır.

10. Meşələrin qırılması

Meşələrin qırılması bitki və heyvanlar üçün yaşayış mühitinin məhv olması deməkdir. Bu, biomüxtəlifliyin itirilməsinə və mühüm ekosistemlərin pisləşməsinə, həmçinin fotosintezin azalması səbəbindən istixana effektinin artmasına səbəb olur.

Meşə ehtiyatlarının vəziyyəti, meşə örtüyünün dəyişməsi və meşə itkiləri sahəsində aparılan qiymətləndirməyə görə Azərbaycan ən yüksək nəticə göstərərək, 132 dövlət arasında 1-ci yeri tutmuşdur.